# "Əlləriniz var olsun"

## Bu sözləri cəbhə xəttində yerləşən hərbi bölmələrin birində əsgər yeməkxanasından çıxan hər kəsdən eşitdik



*Zabitlər də, əsgərlər də ləziz, dadlı yeməklərə görə mətbəxdə çalışan qadınlara "Çox sağ olun", "Əlləriniz var olsun" deyirdilər.*



Həmin gün günorta naharına biz də qonaq olmuşduq. Doğrudan da, bu yerlərdə 20 il xidmətim ərzində dəfələrlə olmuşam, amma belə müasir şəraiti və ürəkaçan xidməti heç zaman görməmişdim. Zabit İlham Fərzəliyev deyir ki, dövlətimizin, ordumuzun rəhbərliyinə minnətdar olmalıyıq ki, qısa vaxtda cəbhə xəttində də belə gözəl imkan, şərait yaradılıb. "Bəlkə də qəzetinizdə bu şəkilləri görən elə fikirləşər ki, yəqin arxada olan hərbi bölmədir, amma belə deyil, bu gün hərbi hissəmizin düşmənlə təmas xəttində yerləşən bütün bölmələrində şəxsi heyətin nümunəvi xidməti üçün əlverişli imkanlar yaradılıb. Belə şərait isə Vətənimizin müdafiəsində dayanan gənclərimizə xoş ovqat, döyüş ruhu aşılayır".

Zabitin dedikləri ilə şərikəm, doğrudan da, insana diqqət və qayğı göstəriləndə, onun rifahı yaxşılaşanda, ürəyinə də təpər gəlir və göstərilən etimadı doğrultmağa səy göstərir.

Ən müasir şəraitə malik olan əsgər yeməkxanasında iştahla nahar etdikdən sonra mətbəxə keçib burada çalışan ana-bacılarımızla görüşürük. Hamı kimi, biz də təşəkkürümüzü bildirib, onların bir neçəsi ilə həmsöhbət oluruq. Kifayət və Aybəniz İsmayılova bacıları aşpazdırlar, yaxın kəndin sakinləridir. Kifayət xanım deyir ki, el-obamızın, Vətənimizin keşiyini çəkən, soyuq havalarda sinəsini düşmənə sipər edib əmin-amanlığımızı qoruyan oğulların xidmətində dayanmaq, hər gün onlara keyfiyyətli yeməklər hazırlamaq hər şeydən əvvəl bir vətəndaş borcumuzdur. "Mənə elə gəlir ki, hər kəs öz peşəsi çərçivəsində üzərinə düşən borcun məsuliyyətini dərk edirsə, bu Vətənə xidmət nümunəsi deməkdir. Bu torpağın keşiyində dayanan əsgərlərin hər biri mənə öz övladlarım kimi doğmadır. Az yaşım yoxdur, bu ərazilərdə xidmət edən əsgərlərin o qədər çətinliklərini görüb eşitmişəm ki. Amma bu gün belə deyil. Sağ olsun cənab Prezidentimiz, məhz onun qayğısı sayəsində doğma ordumuz gündən-günə güclənir. Hiss edirəm ki, hamı orduda ürəklə xidmət edir, əsgər oğullarımıza əmr verilərsə, onlar düşməni torpaqlarımızdan qovub çıxaracaqlar".

Fürsətdən istifadə edib nahardan qayıdan əsgərlərlə də görüşüb ürək sözlərini qələmə alırıq. Elman Alışanov, Murad Bağırov, Orxan Qəhrəmanov, Məlik Qasımov və başqaları hər gün burada iştahla nahar etdiklərini, hər yerdə yüksək məişət şəraitinin yaradıldığını deyirlər. "Valideynlərimiz bəzən yanımıza gələndə evdəki yeməklərdən gətirirlər. Amma əlimizi vurmuruq, axı ehtiyacımız yoxdur, elə burada da hazırlanan yeməklər evimizdə olduğu kimi dadlı, ləzzətlidir," - deyir əsgərlərimiz. Sonda bir ağızdan onu da bildirirlər ki, dövlətimizin, xalqımızın belə yüksək qayğısına cavab olaraq son nəfəsimizədək döyüşməyə, Vətənə canımızı fəda etməyə hazırıq.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**